Ermənistan öz təcavüzkar, avantürist siyasətindən əl çəkməlidir

"Ermənistan tərəfinin yenidən cəbhənin Tovuz rayonu istiqamətində təxribat törətməsi nəticəsində Azərbaycan Ordusu bir şəhid verdi. Bu, bizim üçün olduqca ağrılıdır, çünki hər bir şəhid torpağa tapşırılarkən həmin ağrı-acını xalq olaraq hamımız hiss edirik.
Düşmənin son aylar ərzində cəbhədə yenidən fəallaşması bizi bir daha əmin edir ki, Ermənistan hakimiyyəti heç vaxt öz işğalçılıq siyasətindən geri durmayacaq".
AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev deyib: "Münaqişənin tarixinə nəzər salsaq, görərik ki, Ermənistan tərəfi torpaqlarımızın işğalını XX əsrdən etibarən daha cidd-cəhdlə həyata keçirməyə başlamışdı. Lakin Ulu Öndər Heydər Əliyev sovet hakimiyyəti dövründə rəhbər vəzifələrdə olduğu müddətdə Azərbaycanın ərazi bütövlüyünü müdafiə edərək düşmənin işğalçı siyasətinin qarşısının alınmasını təmin etmişdi. Heç də təsadüfi deyil ki, Ulu Öndər Siyasi Bürodan uzaqlaşdırıldıqdan iki həftə sonra ermənilər yenidən mənfur siyasət yürüdərək öz ərazi iddialarını irəli sürdülər.

Əli Azərbaycan xalqının qanına batmış Qorbaçov eyni xislətdə olduğu Ermənistan tərəfinin mövqeyini müdafiə edərək Dağlıq Qarabağda xüsusi komitənin yaradılmasını təmin etdi və öz köməkçisi, sonralar erməni lobbisinin maraqlarına xidmət edən Arkadi Volskini həmin komitəyə rəhbər təyin etdi.

A.Volskinin dövründən etibarən əvvəlcə Xankəndi, sonra Azərbaycanın digər ərazilərində xalqımıza qarşı etnik təmizləmə siyasətinə başlanıldı, azərbaycanlılar öz əzəli və əbədi torpaqlarını tərk etməyə məcbur qaldı. Sonradan isə Ermənistan tərəfinin 366-cı motoatıcı alayın iştirakı ilə törətdiyi soyqırımları, insanlarımızın kütləvi şəkildə öz dədə-baba yurdlarını tərk etmələri, dinc sakinlərimizin, xüsusilə qadın, uşaq və qocaların ağır əzab və iztirablarla öldürülməsi faktı hamımıza məlumdur.

Mürəkkəb hadisələrin baş verdiyi həmin dövrdə o vaxtkı Azərbaycan hakimiyyətinin bu ağır vəziyyətdən çıxış yolu tapmaq əvəzinə dövlətə qarşı xəyanəti, ayrı-ayrı xarici ölkələrin maraqlarına xidmət edərək xalqı öz taleyinə buraxması, həqiqətən də, onların qəlbində dövlətimizə, xalqımıza qarşı sədaqət, Vətənə məhəbbət hissinin olmadığını bir daha sübut edir.

Ermənistan tərəfinin apardığı təcavüzkar siyasət yalnız Köçəryan-Sarkisyan cütlüyünün hakimiyyəti dövrünə təsadüf etmir. Bu gün ölkənin baş naziri Paşinyan da öz sələflərinin yolunu davam etdirir və onların işğalçılıq siyasətini həyata keçirir. Bu isə bizə belə qənaətə gəlməyə əsas verir ki, Ermənistanda hakimiyyətdə kimin olmasının heç bir əhəmiyyəti yoxdur, bütün hakimiyyət bir qisim şəxslər tərəfindən idarə olunur. Bugünkü Ermənistan hakimiyyəti Soros rejiminin məhsuludur və təbii ki, Sorosun siyasi diktəsini həyata keçirir, təkcə ona görə yox ki, hakimiyyət komandasının bütün üzvləri ya Soros Fonduna, ya "Transperensy"yə, ya da ki, digər insan hüquqları təşkilatlarına bağlıdırlar. Təbii ki, siyasi sifarişləri yerinə yetirən bu təşkilatlar öz sadiq qullarının iradəsinə uyğun davranırlar.

Ermənistan tərəfinin məzlum imici alması, özlərini dünyaya yazıq xalq olaraq göstərməsi bizi aldatmamalıdır, onlar sadəcə öz maraqları üçün hər cildə girməyi bacarırlar. Belə ki, yaxın keçmişə nəzər salsaq, görərik ki, Ermənistanda Paşinyan hakimiyyətə gəldikdən sonra rəsmi və qeyri-rəsmi kanallar vasitəsilə sülhün tərəfində olmasını bildirdi və əvvəlkilərdən fərqli olaraq münaqişənin tez bir zamanda həll edilməsi üçün sülh danışıqlarına başlayacağının anonsunu verdi.

Həmin dövrdə Ermənistanla yanaşı, ATƏT-in Minsk qrupunun həmsədrləri də münaqişənin qısa müddət ərzində sülh yolu ilə həll ediləcəyinin proqnozunu verirdilər. Hətta baş verənlərin fonunda Ermənistanın əvvəlki rəhbərlərinin həbs edilməsi hakimiyyətin öz simasını dəyişməsini əsaslandırmağa imkan versə də, bu gün görürük ki, heç də belə deyilmiş, düşmən öz təcavüzkar mövqeyini sadəcə gizlətməyə cəhd etmişdir.

Paşinyan hakimiyyətə gəldiyi zaman ordumuzun silahlı birləşmələri tərəfindən həyata keçirilən uğurlu Günnüt əməliyyatının çox da qabardılmamasının səbəbi isə təkcə Ermənistan rəhbərliyinə vaxtın verilməsi yox, eyni zamanda Azərbaycanın daim hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarına riayət etməsi, münaqişələrin həlli yolu kimi müharibəni qəbul etməməsi və sülhün tərəfində olmasının əyani sübutu idi.

Lakin Nikol Paşinyan az bir müddətdən sonra siyasətdə böyük dəyişiklik etdi və yalvarıcı diplomatiya dilindən uzaqlaşaraq müharibəyə meyilli siyasət yürütdü. O, özündən əvvəl bu siyasəti həyata keçirənlərin sonlarının necə olduğunu görürdü, lakin belə məlum olur ki, bundan özünə bir nəticə çıxarmamışdır. Əks halda ordunun silahlandırılmasını həyata keçirmək, habelə qadınları hərbi təlimlərə cəlb etməklə yanaşı, "Müdafiə haqqında" qanuna dəyişiklik etməklə 70 yaşadək olan ahıl insanları belə silahlandırmağa cəhd etməzdi.

Ermənistan tərəfi başa düşür ki, Azərbaycan müharibəni də, diplomatiyanı da beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsipləri ilə yanaşı, öz tarixinə sadiq qalaraq mərdcəsinə həyata keçirir. Belə bir vəziyyətdə güclü Azərbaycan Ordusunun qarşısına onlar ahıl adamları çıxarırlar. Bu isə o deməkdir ki, insan həyatının onlar üçün heç bir əhəmiyyəti yoxdur. Belə olmasaydı, cəmi 2 ay bundan əvvəl Tovuz rayonunda törətdikləri təxribat zamanı 76 yaşlı vətəndaşımızı qətlə yetirməzdilər. Bu təxribat zamanı üzləşdikləri məğlubiyyəti riyakar hakimiyyət öz millətinə qələbə deyə təqdim edib. Təbii ki, belə olan halda sual olunur ki, əgər qələbə qazanmısınızsa, niyə gedib Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına yalvarırsınız?

Bu gün Azərbaycanın güclü rəhbəri və ordusu var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistanın həyata keçirdiyi siyasətlə bağlı sərt mövqedədir. Sentyabrın 21-də Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda 182 ölkə arasında 6-cı olaraq çıxış edən dövlətimizin başçısı İlham Əliyev bir daha dünyanın diqqətinə çatdırdı ki, "Ermənistanın baş naziri ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların format və mahiyyətini məqsədyönlü şəkildə pozur. Onun "Qarabağ Ermənistandır" bəyanatı danışıqlar prosesinə ciddi zərbədir və o, danışıqlar prosesində əsassız şərtlər irəli sürür. Onun Azərbaycana qarşı irəli sürülmüş qəbuledilməz "yeddi şərti" tərəfimizdən rədd edilmişdir və sülhə nail olunması üçün bizim yeganə şərtimiz var. Ermənistan silahlı qüvvələri Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır! Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi olaraq tanıyır!"

Ermənistan və onun havadarları bir daha başa düşməlidir ki, Azərbaycanın bütün sahələrdə olduğu kimi, diplomatiya sahəsində də qazandığı uğurlar ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müharibədə də qələbənin əldə edilməsini şərtləndirir. Erməni tərəfi bunu nə qədər tez anlasa, onlar üçün bir o qədər yaxşı olar.

"Əsrin müqaviləsi" müstəqil inkişaf yolumuzda dönüş nöqtəsidir

Tarixi həqiqətdir ki, ölkəmizin hərtərəfli inkişafının bünövrəsini təşkil edən "Əsrin müqaviləsi"nin imzalanması asan başa gəlməmişdir. Xarici neft şirkətlərinin Azərbaycan neftinə marağı 1989-cu ildən başlasa da, müstəqilliyin ilk illərində ölkədə siyasi, iqtisadi, sosial, hüquqi, institusional xarakterli risklərin və xarici təhdidlərin mövcudluğu neft sazişinin imzalanması qarşısında ciddi maneələr törədirdi.

Belə ki, 1991-1993-cü illərdə Azərbaycanın müharibə şəraitində olması, bir milyondan çox qaçqın və məcburi köçkünün problemləri ilə üzləşməsi, idarəetmədə səriştəsiz insanların geniş şəkildə təmsil olunması, mövcud iqtisadi institutların olduqca səmərəsiz fəaliyyət göstərməsi, keçmiş ittifaq ölkələri ilə ticarət-iqtisadi əlaqələrin zəifləməsi nəticəsində ölkə iqtisadiyyatında böhran dərinləşmiş, sosial-iqtisadi vəziyyət kəskin surətdə pisləşmişdi. Bundan əlavə, ölkə daxilində silahlı qarşıdurma, vətəndaş müharibəsi, qardaş qanının axıdılması hərbi-siyasi xaosa gətirib çıxarmışdır. Bir sözlə, olduqca qeyri-əlverişli və təhlükəli böhran, problemlər və risklər şəraitində ölkəmiz yenicə bərpa edilmiş müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı və Azərbaycan beynəlxalq biznes fəaliyyəti qurmaq, xarici sərmayələri ölkə iqtisadiyyatına cəlb etmək nöqteyi-nəzərdən ən çox riskli ölkələr sırasında yer alırdı.

O dövrdə ölkənin sosial-iqtisadi vəziyyətinin qısa müddətdə dirçəldilməsinin və müstəqilliyinin möhkəmləndirilməsinin yeganə yolu kimi təbii sərvətimiz olan karbohidrogen resurslarının hasil edilməsi və dünya bazarına ixrac edilməsi çıxış edirdi ki, bu da irihəcmli xarici investisiyaların, xarici texnologiya və yüksəkixtisaslı kadrların ölkə iqtisadiyyatına cəlb edilməsini həyati vacib məsələyə çevirirdi. Bu baxımdan ölkənin düşdüyü böhranlı və riskli vəziyyətdə xarici investorları inandırmaq, onlarla milli maraqlara cavab verən neft sazişi şərtlərini razılaşdırmaq böyük siyasi uzaqgörənlik və səriştə, idarəetmə təcrübəsi və bacarığı tələb edirdi. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1991-1993-cü illərdə hakimiyyətdə təmsil olunan insanların siyasi savadsızlığı və səriştəsizliyi, hətta bir çox hallarda şəxsi maraqları milli maraqlardan üstün tutması səbəbindən xarici investorlarla razılaşma əldə olunmadı.

Məhz xalqın təkidli tələbilə siyasi hakimiyyətə gəldikdən sonra Ümummilli Lider Heydər Əliyev çoxsaylı çətinliklərə baxmayaraq, danışıqlar prosesinə yeni nəfəs və xüsusi dinamika gətirdi. Çətinliklərin bir hissəsi yuxarıda qeyd etdiyimiz böhran şəraiti ilə yanaşı, neftin ixrac infrastrukturunun mövcud olmaması ilə bağlı idisə, digər hissəsi müəyyən xarici qüvvələrin təzyiqləri və təhdidləri ilə əlaqədar idi. Şübhəsizdir ki, bu təhdidlərin əsas məqsədi əlverişli geostrateji mövqedə yerləşən Azərbaycanı daim asılı vəziyyətdə və təsir dairəsində saxlamaq, onun iqtisadi müstəqilliyinin möhkəmlənməsinə xidmət edən istənilən layihələrin reallaşdırılmasına mane olmaq idi. Sazişin imzalanması ərəfəsində və ondan sonrakı illərdə də bu təhdidlər özünü xüsusilə Xəzər dənizinin statusu probleminin ortaya atılmasında, ixrac boru kəmərlərinin çəkilişinə əngəllərin yaradılmasında, dövlətimizin başçısına qarşı suiqəsd planlarının, dövlət çevrilişi cəhdlərinin hazırlanmasında, ölkə daxilində terrorun və separatçılığın dəstəklənməsində büruzə verirdi. Bütün bu təhdidlərə və risklərə baxmayaraq, *"Mən ömrümün qalan hissəsini də öz xalqıma bağışlayıram"* fəlsəfəsini həyat tərzinə çevirən Ulu Öndər Heydər Əliyev çoxsaylı görüşlər və gərgin danışıqlar prosesində, daxili və xarici siyasətdə böyük müdriklik, yorulmaz əmək, enerji, qətiyyətli və cəsarətli mövqe, güclü siyasi iradə nümayiş etdirərək dünyanın aparıcı güc mərkəzlərinin, dövlətlərinin və onların iri transmilli şirkətlərinin diqqətini və marağını Azərbaycana cəlb edə bildi və bu tarixi missiyanın öhdəsindən uğurla gəldi. Nəhayət ki, 1994-cü il sentyabrın 20-də milli mənafelərimizə və qarşılıqlı faydalılığa əsaslanan irimiqyaslı neft sazişinin - Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında saziş imzalandı. Qeyd edək ki, sözügedən yataqlarda çıxarıla bilən neft ehtiyatı ilkin hesablamalara görə 511 milyon ton olsa da, yeni hesablamalara əsasən, 1.072 milyard ton həcmində müəyyən edilmişdir. 7,4 milyard dollar dəyərində olan və dünyanın 7 ölkəsini (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç və Səudiyyə Ərəbistanı) təmsil edən 11 beynəlxalq neft şirkətinin (Amoco, BP, McDermott, UNOCAL, ARDNŞ, LUkoil, Statoil, Türk Petrolları, Pennzoil, Ramco, Delta) iştirak etdiyi bu saziş müstəqilliyimizin taleyində həlledici əhəmiyyətə malik olduğuna, böyük çətinliklər bahasına başa gəldiyinə, keçən əsrdə Azərbaycan tarixində siyasi, iqtisadi və strateji əhəmiyyətinə görə ən mühüm müqavilə olduğuna görə haqlı olaraq "Əsrin müqaviləsi" adlandırıldı.

Xüsusi qeyd olunmalıdır ki, "Əsrin müqaviləsi"nin imzalanması sonralar 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə daha 35 sazişin imzalanmasında həlledici amil oldu. Eyni zamanda sözügedən müqavilə Azərbaycanın Avropa və Asiyanı birləşdirən nəhəng transkontinental neft-qaz layihələrinə imza atmasına səbəb oldu ki, bununla da ölkəmiz mühüm əhəmiyyət kəsb edən beynəlxalq enerji qovşağına çevrildi. Nəhəng transmilli enerji layihələri olan Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft ixracı boru kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, "Cənub qaz dəhlizi" və onun tərkib hissəsi olan "Şahdəniz 2" layihəsi, Cənubi Qafqaz Boru Kəməri, TANAP qaz ixrac kəməri, yekunlaşmaqda olan TAP qaz ixrac kəməri dünyanın enerji xəritəsini dəyişməklə Avropanın enerji təhlükəsizliyində mühüm əhəmiyyət kəsb edən layihələr kimi uzun müddət ölkəmizə milyardlarla valyuta gəlirlərinin daxil olmasını təmin edəcək, Azərbaycanın yaxın coğrafiya üçün, xüsusilə Avropa və Mərkəzi Asiya ölkələri üçün strateji əhəmiyyətini daha da yüksəldəcəkdir.

Həqiqətən də, "Əsrin müqaviləsi"nin imzalanması ilə milli maraqlarımıza və dövrün reallıqlarına tam cavab verən yeni neft strategiyasının təməlinin qoyulması və reallaşdırılması müstəqil inkişaf yolunda dönüş nöqtəsi və möhkəm platforma yaratmaq, ölkəmizin siyasi, iqtisadi və sosial inkişafında həyati vacib əhəmiyyətə malik olan hadisə kimi müstəqillik tariximizə əbədi həkk olundu. Cənab Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bizim bugünkü inkişafımız, bugünkü nailiyyətlərimiz, Azərbaycanın həqiqətən müstəqil ölkə kimi dünya birliyinə qədəm qoyması böyük dərəcədə "Əsrin kontraktı"nın imzalanması ilə bağlıdır. Bu çox cəsarətli və müdrik addım idi. Əgər 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin kontraktı" imzalanmasaydı, bu gün təsəvvür etmək mümkün deyil ki, Azərbaycan hansı vəziyyətdə ola bilərdi". Böyük uzaqgörənliklə, inamla və qətiyyətlə, güclü siyasi iradə ilə yaradılmış məhz bu möhkəm təməllər sayəsində ölkəmizin ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatında əldə edilmiş əzəmətli uğurlar və ali mənəvi sərvətimiz olan müstəqilliyimiz məhz bu dövrdən başlayaraq yüksəlişə, tərəqqiyə doğru irəliləməkdə və möhkəmlənməkdədir. Tam demokratik və hüquqi dövlətə çevrilmiş Azərbaycan bu gün dünyada baş verən təlatümlərin, qeyri-müəyyənliklərin, böhranların, münaqişələrin və qanlı toqquşmaların fonunda ictimai-siyasi stabilliyini qoruyub saxlaya bilən "sabitlik adası" kimi tanınır, dayanıqlı və davamlı inkişaf nümayiş etdirərək müxtəlif sivilizasiyaları, mədəniyyətləri təmsil edən ölkələr üçün əlverişli və etibarlı əməkdaşlıq və tərəfdaşlıq platforması, sivilizasiyalararası dialoq və multikulturalizm məkanı hesab edilir, regionda həyata keçirilən irimiqyaslı transmilli layihələrin əsas təşəbbüskarı və icraçısı kimi liderlik mövqeyini gücləndirir, dünyada və beynəlxalq təşkilatlarda sayılıb-seçilən, söz sahibi olan nüfuzlu dövlətlər sırasında yer alır.

Danılmaz faktdır ki, bütün bunlar məhz Ümummilli Lider Heydər Əliyevin və möhtərəm Prezident İlham Əliyevin müdrik və milli maraqların prioritetliyinə əsaslanan uğurlu siyasətlərinin təntənəsidir. Təsadüfi deyil ki, 23 il sonra dünyada və ölkədə cərəyan edən hadisələri, prosesləri və trendləri düzgün və vaxtında qiymətləndirərək, onları böyük uzaqgörənliklə qabaqlayaraq 2017-ci ilin 14 sentyabr tarixində yeni neft sazişinin imzalanması və bununla da yekunlaşmasına 7 il qalmış "Əsrin müqaviləsi"nin müddətinin daha əlverişli şərtlərlə 2050-ci ilə qədər uzadılması XXI əsrin ən böyük tarixi nailiyyətlərindən biri olmaqla bu siyasətin təntənəsinin ardıcıl və etibarlı şəkildə davam etdiyini bir daha təsdiq etdi. Dünyanın ən məşhur 8 neft şirkəti ilə daha bir nəhəng, qlobal əhəmiyyətli - beynəlxalq ictimaiyyət tərəfindən "XXI əsrin müqaviləsi" adlandırılan sazişin imzalanması Azərbaycanın müstəqillik tarixinin çox əlamətdar hadisəsi olaraq, İlham Əliyev dövrünün ən mühüm uğurlarından biri kimi dəyərləndirilməlidir.

Azərbaycan dövlətinin belə bir nəhəng sazişə imza atması ən azı 2050-ci ilə qədər ölkəmizin davamlı və dayanıqlı iqtisadi və sosial inkişafı üçün zəmanət yaratmaqla, həm də Azərbaycanın neft strategiyasında yeni eranın başlanğıcını qoydu. Bu nəhəng transregional enerji müqaviləsinin son illərdə qlobal iqtisadiyyatda müşahidə olunan qeyri-stabil şərait fonunda baş tutması, birmənalı olaraq dövlət başçısı İlham Əliyevin məharətli idarəçiliyini və regiondakı güclü lider obrazını bir daha təsdiq edir.

"XXI əsrin müqaviləsi"nin imzalanması sentyabr ayının ilk günlərində bəzi xarici mətbu orqanlarında Azərbaycan hakimiyyətinə qarşı səsləndirilən bütün qarayaxmalara da çox tutarlı cavab oldu. Bütün bu siyasi təzyiqlərə, toqquşan maraqlara baxmayaraq, nəhəng qlobal neft şirkətlərinin Azərbaycana uzunmüddətli dövr ərzində böyük miqdarda investisiya qoyuluşunu həyata keçirməsi dünya birliyinin Azərbaycan Prezidentinə, Azərbaycan iqtidarına olan inamının, etibarının ən bariz göstəricisi oldu, eyni zamanda İlham Əliyevin cəsarətini, güclü siyasi iradəsini, Azərbaycanın necə etibarlı beynəlxalq tərəfdaş olduğunu bütün dünyaya nümayiş etdirdi.

"Əsrin müqaviləsi"nin 23 illik fəaliyyəti (1994-2017) dövründə 33 milyard dollar həcmində sərmayə qoyuluşu ilə 440 milyon ton neft hasil edilərək ölkəmizə 125 milyard dollardan çox birbaşa mənfəət qazandırmış "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının potensialının yarısından çoxunun hələ istifadə edilmədiyini nəzərə alsaq, onda yeni sazişin ölkəmizin sosial-iqtisadi rifahına verəcəyi misilsiz töhfələr əvəzedilməz hesab edilməlidir. Belə ki, "XXI əsrin müqaviləsi"nin şərtlərinə görə, fəaliyyət göstərəcəyi 32 il ərzində əlavə olaraq 40 milyard dollar həcmində investisiya qoyuluşları, 3,6 milyard dollar mənfəətinə bonusun dövlətə ödənilməsi, 500 milyon tondan çox neft hasilatının proqnozlaşdırılması, neftlə yanaşı hasil ediləcək səmt qazının tamamilə Azərbaycana məxsus olacağı nəzərdə tutulur. Mənfəət neftindən 75 faizlik payın əldə edilməsi və SOCAR-ın payının 2 dəfədən çox artaraq, 11,65 faizdən 25 faizə yüksəldilməsi, xeyli sayda yeni iş yerlərinin yaradılması ölkə iqtisadiyyatının dinamik inkişafına səbəb olacaq böyük multiplikativ effektlər doğuracaqdır.

Əminlik hissi ilə qeyd edə bilərik ki, sazişin yeni əlverişli şərtlərlə davam etməsi yaxın gələcəkdə ölkəmizin sürətli inkişafında yeni keyfiyyət mərhələsinin başlanmasına və inkişaf etmiş post-industrial ölkələr sırasına daxil olmağa doğru hədəflənmiş yolun çox qısa bir zamanda dəf edilməsinə səbəb olacaqdır. Bunun üçün "Əsrin müqaviləsi"nin Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunun qorunmasında, möhkəmlənməsində və qüdrətlənməsində əvəzsiz rola malik olduğunu sübut edən ən yaxın keçmişimizə nəzər yetirmək kifayətdir ki, bu əminliyimizdə haqlı olmağımız bir daha öz təsdiqini tapsın.

Mübaliğəsiz demək olar ki, bütün bu tarixi nailiyyətlərin əldə olunmasında "Əsrin müqaviləsi"nin mühüm rolu olmuşdur, var və olacaqdır. Bundan sonra da, hələ uzun illər Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Azərbaycanın neft strategiyası nəinki müstəqil Azərbaycanın, eləcə də bütövlükdə region ölkələrinin və ümumilikdə qlobal iqtisadiyyatın inkişafına əhəmiyyətli töhfələr verməyə davam edəcəkdir.

Şəmsəddin HACIYEV,
YAP Səbail Rayon Təşkilatının sədri, iqtisad elmləri doktoru, professor

Milli Məclisin Aqrar siyasət komitəsinin iclası keçirilib

Sentyabrın 22-də Milli Məclisin Aqrar siyasət komitəsinin 2020-ci ilin payız sessiyasında ilk iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, komitənin sədri Tahir Rzayev həmkarlarını yeni sessiyanın başlanması münasibətilə təbrik edib, onlara payız sessiyasında uğurlar arzulayıb.

T.Rzayev 2020-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində komitədə görülən işlərə dair hesabatı təqdim edib. O, ötən dövrdə komitənin gərgin işlədiyini diqqətə çatdırıb. Bildirib ki, bu müddətdə 7 iclas keçirilib, 17 məsələ müzakirə olunub. Ötən müddətdə komitədə "İstehsalat və məişət tullantıları haqqında", "Heyvanlar aləmi haqqında", "Ekoloji təhlükəsizlik haqqında", "Bələdiyyələrin su təsərrüfatı haqqında", "Ovçuluq haqqında", "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında", "Yeyinti məhsulları haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında", "Torpaq icarəsi haqqında", "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitorinqi və yer quruluşu haqqında" qanunlarda, Torpaq Məcəlləsində, İnzibati Xətalar və Mülki məcəllələrdə dəyişiklik olunması barədə sənədlərə baxılaraq Milli Məclisin plenar iclasına tövsiyə edilib. Həmin qanun layihələrinin əksəriyyəti qəbul olunub.

Sessiyalar ərzində komitənin ünvanına daxil olmuş 31 təklif, ərizə və şikayətə baxılıb, bəziləri müvafiq qaydada həll edilib, bəziləri araşdırılması üçün müvafiq təşkilatlara göndərilib. Hesabat dövründə komitənin üzvləri ölkə daxilində keçirilmiş tədbirlərdə, mətbuatda müxtəlif səpkili çıxışlar edərək ölkəmizin siyasi və iqtisadi sahələrdə əldə etdiyi uğurlar barədə seçicilərini vaxtaşırı məlumatlandırıblar.

Hesabat məqbul hesab edilib.

Sonra komitənin 2020-ci ilin payız sessiyası üçün qanunvericilik işləri planı müzakirə olunub. Bildirilib ki, qarşıdakı sessiyada iş planına Azərbaycan Prezidentinin, respublika Ali Məhkəməsinin, Baş prokurorun, Milli Məclisin deputatlarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi sənədlərin müzakirəsi, "Qida təhlükəsizliyi haqqında" qanun layihəsinin hazırlanması, bir sıra qanunvericilik aktlarına əlavə və dəyişikliklərin edilməsi barədə məsələlər daxildir.

Deputatlar Eldar İbrahimov, Cavanşir Paşazadə, İqbal Məmmədov, Aydın Hüseynov, Azər Badamov, Müşfiq Cəfərov, Emin Hacıyev müzakirə ediləcək sənədlərlə bağlı fikirlərini açıqlayıb, təkliflərini bildiriblər. İclasın sonunda iş planı təsdiq edilib.

Zirehli texnikaların ekipajları döyüş vərdişlərini təkmilləşdirirlər

Azərbaycan Respublikası Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq, piyadaların döyüş maşınları (PDM), zirehli transportyorlar (ZTR) və digər döyüş maşınlarının ekipajları döyüş vərdişlərini təkmilləşdirirlər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda bildirilib ki, ümumqoşun poliqonlarının təlim nöqtələrində zirehli texnikaların ekipajlarından ibarət şəxsi heyət atış hazırlığı üzrə normativləri yerinə yetirir.

Keçirilən təlim məşqlərinin əsas məqsədi şəxsi heyətin döyüş hazırlığının artırılması, döyüş maşınlarının çətin keçilən ərazilərdə idarə olunması və real döyüş şəraitində tətbiqi üzrə vərdişlərin təkmilləşdirilməsidir.

Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəs rejimini 33 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 33 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli, Ağdam və Ağbulaq kəndlərində, Çəmbərək rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.